2021.- 27 fevral.- S.27.

iki sahil

# Sumqayıt hadisələri planlaşdırılan erməni təxribatlarının ilk həlqəsi idi

## XARİCİ QÜVVƏLƏRİN HAZIRLADIĞI, DAĞLIQ QARABAĞI AZƏRBAYCANDAN QOPARMAQ PLANINA UYĞUN SUMQAYITDA ERMƏNİLƏRİN İŞTİRAKI İLƏ TƏŞKİL OLUNAN TƏXRİBAT SSRİ-NİN SÜQUTUNU TEZLƏŞDİRDİ



Təsadüfdürmü, yoxsa bu da Tanrının xalqımızın taleyinə yazdığı alın yazısıdır ki, biz heç bir millətdə, xalqda hiss olunmayan mənfi xarakterləri, vəhşilikləri, qaniçənliyi, qəddarlığı genlərində daşıyan ermənilərlə qonşu olmuşuq. Təəssüf doğuran bir təsadüf də odur ki, qonşuluğa məhkum edildiyimiz bu toplum müxtəlif tarixlərdə olsa belə, ilin bütün aylarında azərbaycanlılara qarşı qanlı hadisələr törətmişdir. Başqa sözlə deyilsə, ilin bütün aylarında erməni vəhşiliyinin nümunəsi olan, Azərbaycanın tarixinə qara səhifə kimi yazılan günlər var: Azərbaycanlıların kütləvi Mart soyqırımı (1918). 20 Yanvar qırğını (1990). Fevralda Sumqayıt hadisələri (1988), Qaradağlı, Malıbəyli, Xocalı qətliamı (1992). Oktyabrda Xocavəndin (1992) , apreldə Kəlbəcərin (1993), mayda Şuşanın, Laçının (1992), iyunda Ağdərənin (1993), iyulda Ağdamın (1993), avqustda Füzuli, Qubadlı və Cəbrayılın (1993), oktyabrda Zəngilanın (1993) ermənilər tərəfindən işğal olunduğu günlərdir. Məhz həmin qırğınlarda imperiyanın xeyir-duasını alan ermənilər böyük-kiçik demədən, qadınlara, uşaqlara, ahıllara divan tutmuş, minlərlə azərbaycanlını qətlə yetirmişlər. Tarixən güclü dövlətlər üçün alət, vasitə olan ermənilərə də də tula payı çatırdı. Qəribədir ki, SSRİ-nin məhvində, "qırmızı imperiyanın" süqutunda da erməni kartından istifadə olundu. Məkrli ssenarinin məqsədi belə idi: SSRİ dağılmalı, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməli idi.

Ötən əsrdə bir neçə dəfə baş vermiş erməni-müsəlman qarşıdurmasının təkrarlanmasını planlaşdıran xarici qüvvələr eyni ssenarini təkrarladılar. Milli zəmində baş verəcək münaqişə ocağı üçün məkan Sumqayıt seçildi. Bəhanə milli münaqişə zəminində baş verəcək qarşıdurma olacaqdı.

"Qarabağ məsələsi" ilə bağlı razılığı Sovet İttifaqının ilk və sonuncu prezidenti, ermənipərəst Mixail Qorbaçovdan alan ermənilərə hərəkətə başlamaq üçün stimul, təkan da lazım idi. 13 fevral 1988-ci ildə ermənilər həsrətində olduqları Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə "miatsum" çağırışlarını səsləndirdilər, mitinqlər təşkil etdilər.

27-29 fevral 1988-ci ildə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) planına uyğun hazırlanan Sumqayıt hadisələri baş verdi. Sumqayıtın seçilməsi təsadüfi deyildi. Ermənilərlə azərbaycanlıların birgə yaşadıqları bu şəhərdə milli zəmində təxribatlar yaratmaq, münaqişələri gerçəkləşdirmək daha asan idi. Sumqayıtda o vaxt 82 millət və etnik qrupu təmsil edən 258 mindən artıq əhali yaşayırdı ki, onların 14.208 nəfəri ermənilər idi. Demək milli zəmində qarşıdurma və qırğın törətmək üçün seçilən bu şəhər əsl "etnik savaş poliqonu" ola bilərdi. Ssenarinin müəllifləri belə bir məqamı da nəzərdən qaçırmadılar ki, gənclik şəhəri Sumqayıtda yaşayanların əksəriyyəti yeniyetmələr idi. Yəni hələ həyat təcrübəsi olmayan gəncləri müxtəlif istiqamətlərə yönəltmək daha asan olardı.

Milliyyətcə erməni, hadisələr zamanı 6 soydaşını qətlə yetirən, 3 dəfə məhkum olunan Eduard Qriqoryan adlı bir nəfərin təşkilatçılığı ilə Sumqayıt hadisələri baş verdi.

Yerli əhalinin "Edik" kimi tanıdığı və DTK-nın əvvəlcədən təlimatlandırıldığı bu erməninin təxribatlarına qoşulan, baş verənlərin əsl mahiyyətini dərk etməyən Əhməd Əhmədov adlı gənc hadisələrin iştirakçısı kimi mühakimə olundu. Milliyyətcə rus olan və əvvəlcədən təlimatlandırılan hakimlərin əlüstü keçirdikləri məhkəmənin hökmü ilə günahsız Əhməd güllələnməyə məhkum edildi. Heç bir təqsiri olmayan Taleh İsmayılov 15 il azadlıqdan məhrum olundu. Digər sumqayıtlı Elçin Gəncəliyev istintaq zamanı verilən işgəncələrə tab gətirməyərək intihar etdi. Əsl qatil Eduard Qriqoryan isə guya azadlıqdan məhrum edilərək Ermənistana təhvil verildi. Az müddətdən sonra isə azadlığa buraxıldı. Hadisə zamanı öldürülən 26 erməni şovinist, terrorçu, separatçı "Krunq" və "Qarabağ" təşkilatlarına pul verməkdən imtina edənlər idi.

20 Yanvarda olduğu kimi, "qarşıdurmanı yatırmaq" adı ilə sovet əsgərlərinin hadisələrə müdaxilə etməsi təsdiqləyir ki, Sumqayıtda baş verənlər düşünülmüş ssenari üzrə həyata keçirilən erməni təxribatı idi. Amma iqtidardakılar nəinki susdular, danışmaq istəyənlərə belə imkan verilmədi. Belə susqunluğun və unutqanlığın ağır nəticəsi bir neçə ildən sonra Xocalı soyqırımı oldu.

Ermənilər illərdən bəri məkrli niyyətlərini həyata keçirmək üçün planlaşdırılmış, sistemli və təşkilatlanmış şəkildə fəaliyyətə başladılar.

Yaxın keçmişdə şahidi olduğumuz qanlı-qadalı hadisələrin, törədilən qırğınların, soyqırımların, qətliamların bir məqsədi var idi: Azərbaycan xalqının qəlbində bir xof, qorxu yaratmaq. Təəccüblüsü budur ki, bir mərkəzdən idarə olunan, sistem halında həyata keçirilən qırğınlarda həmişə başına tumar çəkilən, sığallanan Ermənistan, günahlandırılan isə Azərbaycan olur.

Amma tarix də göstərdi ki, ədalətə qalib gələ biləcək güc yoxdur. Dağlıq Qarabağ münaqişəsi başlandığı gündən sülh və ədalət tərəfdarı olan Azərbaycanın torpaqlarının işğaldan azad ediləcəyini: "Ancaq bu, hərtərəfli və tam şəkildə olmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq" sözləri ilə bildirən Prezident İlham Əliyev bu vədinə də sadiq qaldı. Ötən əsrin əvvəlində törətdikləri soyqırımları yüzilliyin sonunda da davam etdirən ermənilər kimi havadarları da Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğunun, Azərbaycan xalqının birliyinin, rəşadətli əsgərlərimizin qüdrətinin qarşısında məğlub oldular. Bir neçə il bundan əvvəl proqnoz kimi deyilən çağırışlar artıq reallıqdır. Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Füzili, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər həqiqi sahiblərinə qaytarıldı. Tarixən mədəniyyət paytaxtımız olan Şuşada bayrağımız dalğalandırıldı. İşğal etdikləri əraziləri dağıdan, meşələri qırıb, yandıran, su mənbələrini çirkləndirən, qurudan ermənilər it kimi yaşadıqları evlərindən elə it kimi də qovuldular. Alçaldıcı təslimçilik sənədinə imza atdılar. Ermənilərin "qüdrətli orduları" haqqında yaratdıqları mifləri dağıdıldı. İşğal altında saxladıqları torpaqlarda azərbaycanlılara qarşı törətdikləri hərbi cinayətləri, sadiq qaldıqları faşist mahiyyətləri dünyaya bəlli oldu.

Münaqişənin sülh yolu ilə həlli üçün bütün imkanlardan istifadə edən Prezident İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət sayəsində dünyanın ən güclü Silahlı Qüvvələri arasında yer alan Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi. Beləcə 20 Yanvar faciəsini, Sumqayıt hadisələrini, Xocalı soyqırımını törədən ermənilərin və havadarlarının planları boşa çıxdı.

"Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi üçün böyük işlər gördük. Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi" söyləyən Prezident İlham Əliyev onu bildirir ki, vətənpərvərlik, dövlətə sədaqət ruhunda yetişən gənclər, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub, torpaqlarımızı işğaldan azad etdilər.

Bütün dünya gördü ki, siyasi iradə, güc, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət olan yerdə haqq-ədalət öz yerini tapır. Bu həqiqəti Azərbaycan yaratdığı reallıqları ilə nümayiş etdirdi.

Havadarlarına arxalanaraq Azərbaycana qarşı təxribatlar törədən, məkrli oyunların iştirakçısı, xunta rejimi ilə idarə edilən məğlub Ermənistan hazırda həyəcanlı günlərini yaşayır. "Biz artıq onların ordusunu, Ermənistan ordusunun canlı qüvvəsini məhv edəndən, onlar diz çökəndən sonra buna məcbur oldular və kapitulyasiya aktına imza atdılar və bizim qələbəmiz təsdiq olundu" söyləyən Prezident İlham Əliyev onu da bildirir ki, Ermənistan bir daha təxribat törətsə nəticəsi daha ağır olacaq: "Amma bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməruk ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər."

Hazırda ordumuz əvvəlki səviyyədən də güclüdür. Artıq dünyada yeni reallıq yaranıb. "Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir" söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistan ordusunun 44 gündə məhv edilməsi, erməni miflərinin dağıdılması Azərbaycan xalqının birlik və həmrəyliyinin rəmzi, ermənilərin rəzilliyidir.

✍ **Xuraman İsmayılqızı,**
***"İki sahil"***